**UOT 75**
https://doi.org/10.59849/2311-8482.2025.4.348

**ZİVƏR BABAYEVA ***

# AZƏRBAYCANDA BƏDİİ KERAMİKA SƏNƏTİNİN TARİXİ VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ

*Bu tədqiqat işində Azərbaycanda bədii keramika sənətinin tarixi inkişaf mərhələləri araşdırılmışdır. Neolit və Eneolit dövrlərindən başlayaraq keramika sənətinin təkamül prosesi izah edilmiş, erkən dövrlərdə dekorativ funksiyaların formalaşması təhlil olunmuşdur. Tunc və Dəmir dövrlərinə aid boyalı qablar mədəniyyətinin estetik və texnoloji xüsusiyyətləri müəyyənləşdirilmişdir. Orta əsrlərdə keramik məmulatların istehsal texnologiyası, şirəaltı və şirəüstü dekor üsulları və anqob texnikası öyrənilmişdir. Səfəvilər dövründə saray keramikası və kaşıkarlıq sənətinin yüksək inkişaf səviyyəsinə çatdığı qeyd olunmuşdur. Xanlıqlar dövründə, xüsusilə Naxçıvan, Şəki və Bakı kimi şəhərlərdə dulusçuluğun geniş yayılması arxiv materialları əsasında sübut edilmişdir. Qacar üslubu təsvirlərin yayılması və süjetli motivlərin formalaşması sənətkarlıqda müşahidə olunmuşdur.*

***Açar sözlər:*** *Bədii keramika, dulusçuluq, kaşıkarlıq, dekorativ sənət, Azərbaycan mədəniyyəti, keramika texnologiyaları.*

## Giriş

Azərbaycanda bədii keramika sənəti ən qədim dekorativ-tətbiqi sənət sahələrindən biri kimi formalaşmış və tarix boyu öz mədəni və estetik dəyərini qoruyub saxlamışdır. Tədqiqatlar göstərir ki, bu sənət növünün ilkin nümunələri hələ Neolit dövrünə təsadüf edir. Başlanğıc mərhələdə əsasən qadınların məşğul olduğu keramika istehsalı, Eneolit dövründə texnoloji irəliləyişlər və bədii ifadə vasitələrinin zənginləşməsi nəticəsində ayrıca bir sənət sahəsi kimi təşəkkül tapmışdır.

## Əsas təhlil

Yerli əhali arasında estetik düşüncə tərzinin inkişafı keramika nümunələrinin bəzək ünsürləri baxımından zənginləşməsinə təkan vermişdir. Əvvəlcə sadə həndəsi və nəbati motivlərlə ifadə olunan təsvirlər əsasən ovsunlayıcı və qoruyucu mahiyyət daşısa da, zaman keçdikcə bu elementlər dekorativ məqsədlərlə tətbiq edilməyə başlanmış və kompleks bəzək sistemlərinə çevrilmişdir. İbtidai cəmiyyət mərhələsində formalaşan heyvan fiqurlu (zoomorf) keramika qabları qədim insanın totemist və animist dünyagörüşü ilə bağlı olmuşdur. Belə məmulatların əsasən dəfn mərasimlərinə aid kontekstdə, qəbir inventarında rast gəlinməsi onların ritual xarakter daşıdığını göstərir. Tunc və dəmir dövrlərinə aid keramika sənəti içərisində xüsusi istiqamət kimi boyalı qablar mədəniyyəti fərqlənir. Bu dövrləri əhatə edən rəngli keramika nümunələri estetik ifadə baxımından zəngin bəzək imkanlarını və dekorativ üslub axtarışlarını əks etdirir. Naxçıvan bölgəsində yerləşən Kültəpə nekropolunda üzə çıxarılmış polixrom keramika nümunələri həmin mərhələdə bu sənət sahəsində yeni inkişaf meyllərinin formalaşdığını göstərir. Bu dövrdə tətbiq olunan dekorativ prinsiplər və motivlər Ön Asiya və Yaxın Şərq mədəniyyətləri ilə sıx sənətkarlıq əlaqələrinin mövcudluğuna dəlalət edir. Bununla yanaşı, Azərbaycan ərazisində mövcud olmuş Qafqaz Albaniyası dövlətinin keramika nümunələrində Yunan-Roma sənət ənənələrinin təsiri aydın şəkildə müşahidə olunur. Xüsusilə Qəbələ rayonundakı Yaloylutəpə arxeoloji abidəsindən əldə olunmuş keramika məmulatları bu mədəniyyətlərarası əlaqələrin bariz göstəricisidir və həmin nümunələrin formalaşdırılmasında konstruktivlik və plastik həll yolları diqqəti cəlb edir [1, s.45].

Arxeoloji tədqiqatlar nəticəsində əldə edilən materiallar sübut edir ki, erkən orta əsrlər dövründə də keramika sənəti Azərbaycanda geniş yayılmış tətbiqi sənət sahələrindən biri olmuşdur. Qəbələ, Beyləqan, Bakı, Mingəçevir, Naxçıvan və digər bölgələrdə aparılmış qazıntılar zamanı üzə çıxarılmış keramika nümunələri həmin dövrün texnoloji səviyyəsi və bədii zövqünü əks etdirən zəngin məlumat bazası təqdim edir. Bu məmulatlarda dekorativ elementlərin sayının və estetik ifadə

imkanlarının artması xüsusilə diqqəti cəlb edir. Keramika bəzəklərində istifadə edilən texnoloji üsullar arasında şirəaltı və şirəüstü boya tətbiqi, ştamp texnikası və digər kompozisiya vasitələri mühüm rol oynamışdır. Bu texnologiyaların təkminləşməsi yeni materialların, o cümlədən lyustr (lustreware) adlanan metal parlaqlığı verən şirələrin istifadəsi ilə müşayiət olunmuşdur ki, bu da dekorativ effektin güclənməsinə səbəb olmuşdur. Əldə edilən dulusçuluq nümunələri göstərir ki, bu dövrdə saxsı məmulatların əksəriyyəti fırlanan dulusçuluq dəzgahı vasitəsilə hazırlanmışdır. Sürahi, küpə, fincan, çıraq, kasa və digər məişət qabları bu texnika ilə düzəldilmiş və öz hamar səthi, dəqiq formalı konstruksiyası və yüksək bişirilmə keyfiyyəti ilə seçilmişdir. IX əsrdən etibarən Azərbaycanda şirli keramika məmulatlarının bədii tərtibatını daha da zənginləşdirmək məqsədilə **anqob** adlı xüsusi gil məhlulundan geniş istifadə olunmağa başlanmışdır. Anqob, bişirmə prosesi zamanı öz rəngini dəyişməyən, sabit və təbii rəngə malik gil növündən hazırlanmalı idi. Bu məhlulun rəng çalarları əsasən ağ, qırmızı, çəhrayı, sarı və digər torpaq tonlarında olmuşdur. Anqob tərkibli gil məhlulu, keramika qablarının həm daxili, həm də xarici səthlərinə çəkilməklə, qabın təbii qırmızı və ya boz rəng örtüyünü aradan qaldıraraq onun üzərində rəngli və bərabər fon formalaşdırırdı. Bu texnika sayəsində şir vasitəsilə yerinə yetirilən dekorativ təsvirlər və naxışlar üçün həm optik cəhətdən cəlbedici, həm də texniki baxımdan uyğun bir zəmin əldə olunurdu.

Şirli keramika məmulatları orta əsrlər Azərbaycanda yalnız gündəlik məişət əşyası kimi deyil, həm də estetik və rituallıq baxımından çoxfunksiyalı məqsədlərlə istifadə olunurdu. Belə qablar bir tərəfdən qida məhsullarının saxlanması və təqdimatı üçün praktik vasitə kimi işlədilir, digər tərəfdən isə otaqların və süfrələrin bədii tərtibatında dekorativ element kimi çıxış edirdi. Bununla yanaşı, bəzi nümunələr memorial xarakter daşıyır, üzərlərində şeirlərdən parçalar, Qurani-Kərim ayələri və ya dulusçu ustaların adları əks olunurdu ki, bu da onların ritual və mənəvi funksiyasını göstərir. Erkən orta əsrlərin sonlarından etibarən Azərbaycanda bədii keramika sənəti inkişaf baxımından daha yüksək mərhələyə çatmışdır. Monqol işğalına qədər davam edən bu yüksəliş dövrü ərzində həm istehsal həcmi, həm də keyfiyyət göstəriciləri baxımından keramika sahəsində nəzərəçarpacaq irəliləyişlər qeydə alınmışdır. Xüsusilə, ayaqla hərəkətə gətirilən çarx texnologiyasının tətbiqi, regionda müxtəlif dulusçuluq mərkəzlərinin təşəkkülü, şirli və polixrom keramika nümunələrinin geniş yayılması yüksək keyfiyyətli saxsı məmulatların istehsalı üçün əlverişli şərait yaratmışdır. Bu dövrə aid keramika nümunələrinin üzərində yalnız ənənəvi ornamental kompozisiyalar deyil, həm də süjetli motivlərə rast gəlinməsi sənətin bədii imkanlarının genişləndiyini nümayiş etdirir. Xüsusilə böyük həcmli dekorativ qablar üzərində bu cür təsvirlər daha zəngin və kompleks şəkildə təqdim olunmuşdur [2, s.125].

Bu dövrdə keramika sənətinin yayılma arealı Azərbaycanın demək olar ki, bütün şəhər və bölgələrini əhatə edirdi. Ölkənin müxtəlif yaşayış məntəqələrində, xüsusilə Beyləqan ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində üzə çıxarılmış zəngin materiallar göstərir ki, həm şirli, həm də şirsiz keramika məmulatlarının istehsalı yüksək texniki və bədii səviyyədə təşkil olunmuşdur. Keramika sənətində növbəti keyfiyyət mərhələsi Səfəvilər dövründə təşəkkül tapan saray incəsənəti ilə bağlıdır. Bu mərhələdə, xüsusilə saraya məxsus emalatxanalarda fəaliyyət göstərən peşəkar sənətkarların yaratdığı keramika nümunələri öz formal müxtəlifliyi, dekor üslubu və estetik təfərrüatları ilə seçilirdi. Həmin məmulatlarda saray mədəniyyətinə məxsus zəriflik, səliqə və kübarlıq açıq şəkildə hiss olunur. Bu tip saray keramikası təkcə saray mühitində məhdudlaşmamış, həm də xalq sənətkarlığına təsir göstərmişdir. Nəticədə, geniş istehsal spektrində – məişət yönümlü məmulatlarda da bədii keyfiyyətlərdə nəzərəçarpacaq yüksəliş baş vermiş, dekorativlik səviyyəsi əhəmiyyətli dərəcədə artmışdır.

Səfəvilər dövründə keramika sənətində ənənəvi dulusçuluqla yanaşı, memarlıq keramikası istiqaməti də nəzərəçarpacaq şəkildə inkişaf etmişdir. Bu mərhələdə sarayların, malikanələrin və dini memarlıq nümunələrinin bəzədilməsində istifadə olunan kaşıkarlıq sənəti keramikanın bədii ifadə imkanlarını daha da genişləndirmişdir. Ornamental və süjetli naxışlarla zənginləşdirilən kaşı bəzəkləri interyer və eksteryerlərin əsas dekorativ komponentinə çevrilmişdir. Kaşıdan hazırlanmış dekorativ pannolar saray memarlığının vacib estetik elementləri kimi çıxış etmişdir. Bu dövrdə keramika qab-qacaq istehsalı da yüksək sənətkarlıq səviyyəsinə çatmışdır. Səfəvi keramikası, özünün incə emalı və kompleks kompozisiya həlli ilə fərqlənir. Məmulatlar üzərində sıx ornamental motivlərlə yanaşı, klassik Şərq ədəbiyyatından və miniatür ənənəsindən ilhamlanan süjetli kompozisiyalar da geniş şəkildə əks olunmuşdur. Saray mühitinin gündəlik həyatı, məişəti və personajları farfor üzərində incəliklə işlənmiş təsvirlərlə təqdim edilirdi ki, bu da həmin dövrün estetik baxışlarını və bədii zövqünü əks etdirirdi [4, s.25].

XVIII əsrin ikinci yarısı və XIX əsrin əvvəllərində isə, müstəqil Azərbaycan xanlıqları dövründə keramika sənətində əsas diqqət məişət yönümlü dulusçuluq istehsalına yönəlmişdir. Bu dövrdə dulusçular tərəfindən məişətin müxtəlif tələbatlarını ödəyən çoxsaylı gil məmulatları hazırlanırdı. Araşdırmalar göstərir ki, həmin məmulatlar funksional təyinatına görə müxtəlif qruplara bölünür: su qabları, qida saxlanması və təqdimatı üçün nəzərdə tutulan qablar, süd məhsulları üçün xüsusi saxsılar, eləcə də evlərin isitmə və işıqlandırma ehtiyaclarına xidmət edən gil məmulatlar bu dövr keramika sənətinin əsas istiqamətlərindən olmuşdur.

Orta əsrlərdə Azərbaycanda keramika sənəti çərçivəsində məişət tələbatını ödəyən saxsı məmulatların çeşidi olduqca zəngin olmuşdur. Xüsusilə su ilə bağlı gündəlik ehtiyaclara cavab verən qabların təyinat baxımından müxtəlif formaları mövcud idi. Belə ki, suyun daşınması üçün səhəng, cürdək, bardaq, sərhəng, kuzə kimi qablar, suyun saxlanması və süfrədə istifadəsi məqsədilə küp, sürahi, qurqur, dolça, parç, tayqulp kimi nümunələr, həmçinin yuyunma və dəstəmaz alma məqsədilə aftafa, lüləyin və digər oxşar məmulatlar geniş yayılmışdır. Ümumilikdə, orta əsrlərin peşəkar dulus ustaları 50-dən artıq müxtəlif funksiyalı keramika qabları istehsal etmək bacarığına malik idilər ki, bu da sənətin texniki və funksional inkişaf səviyyəsini nümayiş etdirir. Azərbaycan xanlıqları dövrünə dair arxiv sənədləri və digər yazılı mənbələr həmin dövrdə keramika istehsalının coğrafi yayılma arealını da ətraflı şəkildə əks etdirir. Şamaxı, Şəki, Ərdəbil, Təbriz, Naxçıvan, Gəncə, Ordubad və digər şəhərlərdə dulusçuluq sənətinin inkişaf etdiyi sənədlərlə təsdiq olunur. Məsələn, Şəki xanlığının müxtəlif kəndlərində və xüsusilə Nuxa şəhərində gil qabların geniş istehsalı həyata keçirilmişdir. Təkcə Şəki şəhərində səhəng istehsalı ilə məşğul olan dulusçu ustaların sayının 29 nəfərə çatması bu sənətin bölgədəki əhəmiyyətindən xəbər verir.

Digər Azərbaycan xanlıqları ilə müqayisədə, Naxçıvan xanlığında keramika istehsalına dair daha çox məlumat mövcuddur. Bununla belə, mövcud mənbələrdə təqdim olunan faktların əksəriyyəti bir-birini təkrarlayan xarakter daşıyır. Tarixi sənədlərdən məlum olur ki, Naxçıvan xanlığının Rusiya imperiyası tərəfindən işğalı dövründə həm Naxçıvan, həm də Ordubad şəhərlərində 12 dulusçuluq emalatxanası fəaliyyət göstərmişdir. Maraqlıdır ki, Ordubadda fəaliyyət göstərən bu emalatxanalardan biri istifadəyə yararsız vəziyyətdə olan bir karvansaranın binasında yerləşirdi. Həmçinin, Təzəkənd adlı yaşayış məntəqəsində Naxçıvan hakimi Ehsan xanın mülkiyyətində olan və saxsı səhəng istehsalı ilə məşğul olan emalatxananın fəaliyyət göstərdiyinə dair məlumatlar da mövcuddur. Bakı şəhərində də dulusçuluq istehsalının mövcud olması ehtimalı elmi cəhətdən əsaslandırılmışdır. Şəhər ətrafında yerləşən müxtəlif növ gil yataqları burada keramika istehsalı üçün əlverişli şəraitin olduğunu göstərir. 1946-cı ildə Bakı qalasının ərazisində aparılmış arxeoloji qazıntılar zamanı XVII–XVIII əsrlərə aid edilən çoxsaylı keramika nümunələri

– şirli kasalar, boşqablar, badyalar və digər məişət qabları aşkar edilmişdir. Bu məmulatların əksəriyyətinin yerli istehsal məhsulları olduğu müəyyən edilmişdir ki, bu da Bakı şəhərində peşəkar dulusçuluğun inkişafına dair fikirləri təsdiqləyir.

Bu dövrdə dulusçuluqla yanaşı, memarlıq keramikasının mühüm istiqaməti olan kaşıkarlıq sənəti də özünün intibah mərhələsini yaşamışdır. Feodal hakimlərin saraylarını bəzəyən süjetli və ornamental kaşı pannoları, eləcə də keramik buxurdanlar və hamam divarlarının üzərində yerləşdirilmiş dekorativ lövhələr bu sənət növünün bədii imkanlarının yüksək səviyyədə inkişaf etdiyini göstərir. Şəki xanlarının sarayı bu baxımdan xüsusilə diqqətəlayiqdir; burada keramika dekorasiyası divar rəngkarlığı ilə üzvi sintez təşkil edərək unikal interyer bədii mühiti formalaşdırmışdır. XIX əsrin sonları – XX əsrin əvvəllərində keramika pannoları artıq Bakı milyonçularının malikanələrinin estetik tərtibatında da geniş istifadə olunmağa başlanmışdır. Bu dövrün dekorativ sənətində klassik İslam Şərqinə məxsus bəzək motivləri ilə Avropa təsviri sənət üslublarının sintezi müşahidə olunur. Axsu şəhəri yaxınlığında yerləşən və XIX əsrə aid edilən bir saray kompleksinin qalıqları arasında tapılmış keramik lövhənin üzərində Qacar üslubuna uyğunlaşdırılmış "Aşiq–Məşuq" süjetli kompozisiya bu tendensiyanın parlaq nümunəsidir. Qacarlar dövründə saray mədəniyyətinin inkişafı keramika sənətinin də sürətli tərəqqisinə səbəb olmuşdur. Bu mərhələdə keramik məmulatların çeşidi əhəmiyyətli dərəcədə artmış, onların bədii tərtibatında süjetli medalyonlar geniş yer almışdır. Qab-qacaq nümunələri, mücrülər, qəlyanlar, qələmdanlar və keramik lampalar bu üsluba uyğun dekorlarla bəzədilmişdir. Ən çox tətbiq edilən motivlər sırasında miniatür portretlər, məhəbbət səhnələri və əyləncə məzmunlu təsvirlər üstünlük təşkil etmişdir. Bu bədii üslub həm şirəüstü, həm də şirəaltı texnikalarla yerinə yetirilmiş və dövrün estetik zövqünü ifadə edən aparıcı cərəyanlardan birinə çevrilmişdir [3, s.67].

**Nəticə**

XX əsrdə və müasir dövrdə bədii keramika sənəti Azərbaycanda qədim sənət ənənələrinin davamı olaraq yeni texnologiyalar və müasir yanaşmalarla zənginləşmişdir. Bu mərhələdə keramika ustaları həm forma baxımından daha mürəkkəb kompozisiyaların hazırlanmasına nail olmuş, həm də dekorativ ifadə vasitələrində innovativ texnikalardan istifadə etmişlər. Texniki təkmilləşmə və estetik axtarışlar nəticəsində bədii keramika nümunələri daha fərqli məzmun və formalarda təqdim olunmağa başlanmışdır. Sovet dövründə Azərbaycanda fəaliyyət göstərən SSRİ Bədii Fondunun keramik emalatxanası bu sənətin peşəkar inkişafında mühüm rol oynamışdır. Bu emalatxanada hazırlanmış keramika nümunələri və onların müəllifləri müxtəlif Ümumittifaq və Beynəlxalq sərgilərdə yüksək qiymətləndirilmiş, diplom və sertifikatlarla təltif olunmuşlar. Müasir dövrün tanınmış keramika ustaları arasında Zahid Hüseynov, Ədalət Bayramov, Saleh Məmmədov, İmran Kərimov, Nailə Sultanova və digər sənətkarların adlarını qeyd etmək mümkündür. Onların yaradıcılığı həm estetik ifadə baxımından, həm də texniki səviyyə baxımından keramika sənətinin bugünkü inkişaf mərhələsini təmsil edir. Müxtəlif keramik pannolar, məişət qabları, keramik park heykəltəraşlığı və digər istiqamətlərdə ərsəyə gəlmiş əsərlər Azərbaycanın bədii keramika irsinin yaşadılmasında və yenidən formalaşdırılmasında mühüm rol oynayır.

## ƏDƏBİYYAT

1. Azərbaycan İncəsənəti. Bakı.1992. 138 s.
2. Əfəndi R.S. Azərbaycan dekorativ-tətbiqi sənətləri. Bakı 1976. 190 s
3. Əliyev V.Q. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı 1977. 164 s
4. Наджафова Н. Художественная керамика. Б., Изд-во «Язычы», 1983. 40 s

***Naxçıvan Dövlət Universiteti I kurs magistrant**
***E-mail: ziverbabayeva99@icloud.com***

**Ziver Babayeva**

**THE HISTORY AND DEVELOPMENT STAGES OF ARTISTIC CERAMICS IN AZERBAIJAN**

This research explores the historical development stages of artistic ceramic art in Azerbaijan. The evolution of ceramic art from the Neolithic and Eneolithic periods is discussed, with particular focus on the emergence of decorative functions during early periods. The aesthetic and technological features of painted ceramic culture from the Bronze and Iron Ages have been examined. The production technologies of ceramic items in the Middle Ages, including underglaze and overglaze decoration techniques as well as the use of engobe, have been studied. It is noted that during the Safavid era, palace ceramics and the art of tile-making reached a high level of development. Archival sources confirm the widespread practice of pottery in cities such as Nakhchivan, Shaki, and Baku during the khanate period. The spread of Qajar-style imagery and the development of narrative motifs in craftsmanship are also analyzed.

**Keywords:** *Artistic ceramics, pottery, tile-making, decorative art, Azerbaijani culture, ceramic technologies.*

**Зивер Бабаева**

**ИСТОРИЯ И ЭТАПЫ РАЗВИТИЯ ХУДОЖЕСТВЕННОЙ КЕРАМИКИ В АЗЕРБАЙДЖАНЕ**

В данном исследовании рассматриваются исторические этапы развития художественной керамики в Азербайджане. Проанализирована эволюция керамического искусства, начиная с неолита и энеолита, с особым акцентом на формирование декоративных функций в ранние периоды. Изучены эстетические и технологические особенности культуры расписной керамики бронзового и железного веков. Исследованы технологии производства керамических изделий в средние века, включая методы подглазурной и надглазурной росписи, а также использование ангоба. Отмечается, что в эпоху Сефевидов дворцовая керамика и искусство изразцов достигли высокого уровня развития. Архивные источники подтверждают широкое распространение гончарного производства в таких городах, как Нахичевань, Шеки и Баку в период ханств. Также проанализировано распространение сюжетных мотивов и образов в стиле Каджаров в декоративно-прикладном искусстве.

**Ключевые слова:** *Художественная керамика, гончарное дело, изразцы, декоративное искусство, азербайджанская культура, керамические технологии.*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 14.10.2025**
**Son daxilolma tarixi:12.11.2025**